# Rəşadətli döyüş yolu



**Lerik rayonunun Çökərə kəndində dünyaya göz açmış Tural Rahil oğlu Əhədovun ömür yolu cəmi 27 il çəkdi. İkinci Qarabağ müharibəsində xalqımıza Zəfər qüruru yaşadanlarla bir cərgədə durmaqla ölməzliyə qovuşdu. Vətən, torpaq uğrunda qanı bahasına göstərdiyi qəhrəmanlıq onu milyonların iftixarına, qüruruna çevirdi. Dövlət də onun örnək olan hünərini unutmadı. Ölümündən sonra təltif olunduğu Cəbrayılın, Şuşanın, Kəlbəcərin azad olmasına görə, "Vətən uğrunda", "İgidliyə görə" medalları, 3-cü dərəcəli "Rəşadət" ordeni şərəfli adına daha bir ucalıq gətirdi...**

Xalq məhəbbəti, Vətən, torpaq sevgisi lap kiçik yaşlardan Turalın qəlbinə hakim kəsilir. 2009-cu ildə səkkizinci sinfi başa vurub hərb sənətini seçməyi bundan irəli gəlir. Tural Cəmşid Naxçıvanski hərbi liseydə doğma Azərbaycanı göz bəbəyi kimi qorumaq, məqamı gələndə uğrunda canını fəda etmək arzusu ilə oxuyur. Düşmənin işğal etdiyi Qarabağ torpaqlarını azad görmək onun əsas amalına dönür. 2012-ci ildə liseyi bitirib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Burada da nümunəvi oxuyur, hərbi təlimlərdə uğurlara imza atır. Əsl vətəndaş, layiqli vətənpərvər olaraq hamı tərəfindən sevilir. Tankçı peşəsini mükəmməl öyrənməklə 2016-cı ildə leytenant rütbəsində məktəbi tamamlayır. O, Xüsusi Təyinatlı Qüvvələrin kursunu da müvəffəqiyyətlə bitirir.

Doğma Azərbaycana ilahi sevgisi, sədaqəti Turalı cəbhə bölgəsinə aparır. Hərbi hissədə qrup komandirinin müavini olur, nümunəvi xidməti Vətən sevdalısını sözün həqiqi mənasında əsgərlərin, zabitlərin sevimlisinə çevirir.

Hərbidə xüsusi istedadını, qabiliyyətini, sınaqlarda Vətəninə, millətinə həqiqi bağlılığını nəzərə alıb Turalı Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Kəşfiyyatçı Artilleriya Korrektə edici" ixtisasına dəvət edirlər. Burada da nəyə layiq olduğunu tam göstərməklə baş leytenant rütbəsinə yüksəlir. İntizamlı hərbçi olaraq verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. General-leytenant Hikmət Mirzəyev tərəfindən "Fəxri fərman" alır, eləcə də "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülür.

Sentyabrın 27-də baş leytenant Tural Əhədov qanlı döyüşlərə qrup komandirinin müavini kimi atılır. Haqq savaşımızın ilk günündən düşmənə sarsıdıcı zərbələr endirir. Öndə getməsi, yüksək döyüş məharətinə malik olması həmişə onun qrupuna qələbə qazandırır. Cəsurluğunu, qəhrəmanlığını görüb onu qrup rəhbəri təyin edirlər. Murovdağ, Füzuli, Hadrut, Xocavənd, Şuşa istiqamətində gedən ağır ölüm-dirim savaşlarının qalibi olmaqla ad qoyur.

Şuşa müharibəsində igid komandir iki döyüş yoldaşı ilə düşmən mühasirəsinə düşür. Son nəfəsinə qədər mübarizə aparıb yağının 70-ə yaxın canlı qüvvəsini məhv edir. 8 noyabrda canını Vətəninə qurban verməklə əbədiyyət adlı dünyasına qovuşur.

Turalın adı indi Vətənlə bir çəkilir. Qərinələr boyunca da belə olacaq.

**Zəfər ORUCOĞLU.**

**Respublika.- 13 fevral.- 2022- ci il.- S. 5.**